**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**QALIB ƏHMƏD OĞLU QASIMOV**

# HEYKƏLTƏRAŞ FAZİL NƏCƏFOVUN YARADICILIĞINDA ƏNƏNƏ VƏ MÜASİRLİK

**İxtisas: 6215.01 – “Təsviri sənət”**

**sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "Təsviri və dekorativ-tətbiqi sənətlər" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Cəmilə Həsən qızı Novruzova**<br>*sənətşünaslıq doktoru, professor* |
| **Rəsmi opponentlər:** | **Salxab İsa oğlu Məmmədov**<br>**Xalq rəssamı, professor** |
| | **Elnarə Nəsrəddin qızı Musayeva**<br>**Sənətşünaslıq üzrə fəlsəfə doktoru** |
| **Aparıcı müəssisə:** | **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** |

Müdafiə **2015-ci ilin dekabr ayının 7-də saat** "**11:00**" Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat **"   " noyabr 2015-ci ildə** göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru: X.Z.Əsgərova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Müasir Azərbaycan incəsənətinə maraq hər gün bir qədər də artmaqdadır. Bunun əsas səbəblərindən biri 1991-ci ildə Azərbaycanın öz müstəqilliyini bərpa etməsi ilə bağlıdır. Bu hadisə həmin dövrdə yaranan incəsənət əsərlərinin səviyyəsinə və məzmununa prinsipial dərəcədə təsir göstərmiş oldu. Həmçinin 2009-cu ildə Bakıda Müasir İncəsənət Muzeyinin yaradılmasını da incəsənət tarixində dövrün əsas dönüş nöqtələrindən biri hesab etmək olar. Ona görə də müxtəlif səbəblərdən nəinki ictimai nüfuz qazana bilməmiş, eləcə də geniş tamaşaçı kütləsinə tanış olmayan, yaşlı nəslə mənsub Azərbaycan rəssamlarının işləri bu muzeydə nümayiş etdirilməyə başladı. Nəticədə bir çox cəhətdən sonrakı dövr rəssamlarını müvəffəqiyyət qazanmağa hazırlaşdıran bütöv bir sovet dövrü Azərbaycan incəsənəti "leqallaşdırıldı". Yenidən "aşkara çıxarılan" rəssamlardan biri də şübhəsiz ki, heykəltəraş Fazil Nəcəfovdur.

Fazil Nəcəfovun bir rəssam kimi formalaşma dövrü 60-cı illərin əvvəllərinə təsadüf edir. Beləliklə də onun bu günə qədərki yaradıcılıq karyerasının təxminən əlli beşdən çox yaşı var. Rəssamın əsərləri hər zaman tənqidçilərin və həmkarlarının diqqət mərkəzində olmuşdur. Lakin bununla yanaşı, indiyədək görkəmli heykəltəraşın yaradıcılığından bəhs edən heç bir böyük əsər yoxdur. Azərbaycan rəssamlarına həsr edilmiş "Sərvət" kitab silsiləsindən Dilarə Vahabovanın monoqrafiyasını[1] bu sıraya qismən aid etmək olar. Lakin sözsüz ki, həmin silsilədən olan bütün monoqrafiyalara aid edilən format, bu gün həm yüksək bədii, həm də tarixi cəhətdən dəyərli olan rəssamın yaradıcılığını

[1] Fazil Nəcəfov. Həyat və yaradıcılıq. Mətnin müəllifi Dilarə Vahabova "Sərvət" silsiləsindən. Bakı: Şərq-Qərb, 2013, 104 s

tam əhatə edə biləcək qədər tutarlı təqdimat hesab edilə bilməz. Qeyd etmək lazımdır ki, Fazil Nəcəfov əlli beş il bundan öncə olduğu kimi, bu gün də öz dövrünün müasiri olaraq yaradıcılığını davam etdirir. Bunları nəzərə alaraq, hesab edirik ki, zəmanəsinin böyük və müasir heykəltəraşı Fazil Nəcəfovun yaradıcılığı ilə bağlı hərtərəfli və müfəssəl tədqiqat aparmağın vaxtı çoxdan çatıb və bu mövzu olduqca aktualdır.

**Mövzunun öyrənilmə dərəcəsi.** Artıq qeyd olunduğu kimi Fazil Nəcəfovun işləri professional tənqidçilər və jurnalistlər tərəfindən hər zaman iltifat və diqqətə layiq görülüb. Lakin buna baxmayaraq rəssamın tərcümeyi-halına həsr olunmuş icmala nəzər salarkən, ortada son dərəcə yoxsul çap materialının olduğu açıq-aşkar üzə çıxır. Bu tədqiqat işində hər şeydən öncə qarşıya çıxan əsas çətinlik bundan ibarətdir ki, heykəltəraşın işlərinin təhlili ilə bağlı əldə olan əsas işlər son 20 ilə aid olanlardır. Bundan öncəkilər ya qorunmayıb, ya da çox aşağı keyfiyyətli fotolarda öz əksini tapıb. Bu səbəbdən də əksər hallarda şahidlərin təsvir etdikləri ilə kifayətlənməli oluruq. Bu şahidlər Azərbaycanın başda Cəmilə Novruzova[2] olmaqla,

---

[2] Novruzova C. Heykəltəraşlığın növü və janrları // "Azərbaycan gəncləri" qəz., 22 mart, 1961, s.3; Novruzova C. Yaradıcılıq dostluğu // "Ədəbiyyat və incəsənət" qəz., 1961, 19 avqust, s. 4; Novruzova C. İnsan sorağında // "Qobustan" incəsənət toplusu, 1970, N 2, s. 65-67; Novruzova C. Müasirlərimizin təsviri // "Ədəbiyyat və incəsənət" qəz. Bakı, 18 sentyabr, 1971, s. 14; Novruzova.C. Sovet Azərbaycanının heykəltəraşlığı – Bakı: İşıq, 1973. 29 s.; Novruzova.C. Müasir monumental heykəltəraşlığımızın bəzi məsələləri // "Azərbaycan kommunisti", 1974, №10, s. 83-92; Novruzova.C. Heykəltəraşlığımızın bu günü // "Qobustan" incəsənət toplusu, 1977, №2, s. 5-11.

Sara Nəzirova[3] kimi artıq dünyalarını dəyişmiş sənətşünaslarıdır. Bu işlər sırasında 1970-ci illərdə Olqa Voronova[4] tərəfindən yazılmış bir məqalə də maraq doğurur. Eləcə də Qriqori Anisimov[5] tərəfindən yazılmış bir neçə esseni qeyd etmək lazımdır. Və nəhayət materialın interpretasiyası zəminində sözsüz ki, artıq qeyd olunduğu kimi Dilarə Vahabovanın monoqrafiyası[6], eləcə də onun bir neçə il bundan öncə "Yol" jurnalında yazdığı məqalə diqqətimizi cəlb edir. Bu araşdırmada Fazil Nəcəfov yaradıcılığına baxış nöqteyinəzərini diqqətə alsaq, yalnız ciddi informativ, tədqiqat mənbəyi kimi deyil, hazırkı tədqiqat üçün ciddi metodoloji bazanı təmin edən həmtərz işlərin vacibliyi mütləq qeyd olunmalıdır.

Xüsusən problemə ənənə və müasirlik kontekstindən baxsaq A.Kamenskinin "Ənənə ağacı"[7] və digər məqalələri böyük rol oynayır. Müasir Azərbaycan mədəniyyətinin problemləri ilə bağlı azərbaycanlı R.Bədəlov və N.Mehdinin əsərlərini də qeyd etmək lazımdır. Bütün bunlara nəzər

---

[3] Oğuz (Nəzirova) S. Qobustandan qaynaqlanan sənət // "Pəncərə" jurnalı, 2007, № 2, ss.78-86; Назирова С. Идущий по миру. Фазиль Наджафов слышит голос камня и воплощает его в реальность. // Азербайджанские известия, 2008, 30 июль, с. 3.

[4] Воронова О.П. В мастерской Фазиля Наджафова. Советская скульптура 76. Москва, «Советский художник», 1978. сс.120-124.

[5] Анисимов Г. Мира восторг беспредельный. Рассказы о художниках. Кн.2. М., 2006, 286 с.; Анисимов Г. Живые краски Апшерона. Баку, Гянджлик, 1978. 166 с.; Анисимов Г. В поисках пластического языка. «Творчество», № 9, 1981, с. 10-11.

[6] Fazil Nəcəfov. Həyat və yaradıcılıq. Mətnin müəllifi Dilarə Vahabova "Sərvət" silsiləsindən. Bakı, "Şərq-Qərb", 2013, 104 s.; Вагабова Д. Фортуна мастера. (Творческий портрет Фазиля Наджафова). Yol, №5 (23), 2010, с. 62-77.

[7] Каменский А.А. Древо традиции // «Декоративное искусство СССР». 1980. №2. с.14-19.

salarkən görünür ki, Fazil Nəcəfovun yaradıcılığını təhlillər əsasında hərtərəfli və tam şəkildə əhatə edən əsər yoxdur.

**Tədqiqatın məqsədi və vəzifələri.** "Fazil Nəcəfovun yaradıcılığında ənənə və müasirlik" mövzusunda tədqiqat işinin məqsədi Fazil Nəcəfovun yaradıcılığındakı məlum problemin mədəniyyətin bu iki vacib kateqoriyasına bağlılıq dərəcəsini təyin etməkdir.

Bu məqsədə nail olmaq üçün tədqiqatçının qarşısında aşağıdakı vəzifələr durur:

1. Fazil Nəcəfovun yaradıcılığına aid olan materialları toplayıb sistemləşdirmək;
2. Ənənə və müasirlik anlayışına dair ayrı-ayrı humanitar elm sahələrinin nümayəndələrinin şərhlərinə nəzər salaraq, hazırkı tədqiqat işində determinasiya təşkil edən əlamətlər sistemini dürüst ifadə etməklə meydana çıxarmaq;
3. Fazil Nəcəfovun yaradıcılığına "ənənə və müasirlik" kontekstindən baxmaq;
4. Fazil Nəcəfovun həyat və yaradıcılığının əsas dövrlərini müəyyən etmək, rəssamın yaradıcılığının formalaşma və kamillik dövrlərini, həmçinin onun əsərlərinin xarakterinin bu və ya digər tarixi dövrlə gizli və açıq əlaqələrini aşkarlamaq;
5. Heykəltəraşın yaradıcılığını, işlədiyi başlıca növ və janrları təsnif etmək, əsas əsərlərini tədqiq və təhlil etmək;
6. Əsərlərinin təhlilləri əsasında Fazil Nəcəfovun bədii dilinin əsas xüsusiyyətlərini aşkara çıxarmaq;

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Fazil Nəcəfovun yaradıcılığı kontekstində "ənənə və müasirlik" problemi təşkil edir. Tədqiqatın predmeti heykəltəraşın yaradıcılığı, onun başlıca əsərləri və bu əsərlərin "ənənə və müasirlik" problemi ilə əlaqəsindən ibarətdir.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın metodoloji əsasını kompleks intizamarası yanaşma təşkil edir. Tədqiqatın

adından da göründüyü kimi problemin qoyuluşu özü mürəkkəb və çoxcəhətlidir. Humanitar elmlərin bir çox sahələri üçün aktuallığını nəzərə alaraq "ənənə və müasirlik" probleminə təsviri, tarixi-müqayisəli, semantik, həmçinin bədii-formal tədqiqat metodlarından istifadə edilməklə baxılmışdır. Bu cür tədqiqatlar üçün müasir tələblər kulturoloji metod və biliklərə müraciət də zəruri olmuşdur. Tədqiqatın metodoloji əsasını B.R.Vipperin, A.Kamenskinin, D.Vahabovanın, R.Bədəlovun araşdırmaları təşkil edir.

**Tədqiqatın sərhədləri.** Fazil Nəcəfovun XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərinə təsadüf edən yaradıcılıq dövrünü əhatə edir. Tədqiqatda heykəltəraşın yaradıcılığında ənənə və müasirlik problemi, dəzgah və monumental heykəltəraşlığı, o cümlədən qrafika və rəsm əsərlərinin və Fazil Nəcəfovun bədii dilinin özünəməxsus xüsusiyyətləri kontekstində nəzərdən keçirilir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk növbədə araşdırmanın əsas probleminin qoyuluşundan, daha dəqiq desək Fazil Nəcəfovun yaradıcılığında ənənə və müasirlik əlaqələrinin problemli məsələlərindən ibarətdir. Bu müddəalar əsasən aşağıdakılardır:

- heykəltəraşın yaradıcılığından bəhs edən materiallar ilk dəfə sistemləşdiriləşdirilmiş, onlar ayrı-ayrı mərhələlər üzrə ardıcıl tədqiq olunmuş, sənətkarın əsərləri müasir tələblərə uyğun surətdə geniş və hərtərəfli təhlillərə cəlb edilmişdir;
- ilk dəfə olaraq bu araşdırmada Fazil Nəcəfovun yaradıcılığının bədii prinsiplərinin ənənə (milli və dünya mədəniyyətində) və müasirlik tendensiyaları səviyyəsində dərindən tədqiqinə cəhd göstərilib və bu iki kateqoriyaya heykəltəraşın yaradıcılığı kontekstindən baxılıb;
- Azərbaycan sənətşünaslığında Fazil Nəcəfovun həyat və yaradıcılığı dolğun, müstəqil tədqiqat obyekti kimi ilk

dəfə təhlil olunub, onun keçdiyi həyat yolunun bədii yaradıcılıq fəaliyyətinə təsiri araşdırılıb;

- rəssamın yaradıcılığında ayrıca fenomen kimi dəyərləndirilən qrafika əsərləri ilk dəfə sistemli və hərtərəfli şəkildə təhlil olunub.

**Tədqiqatın nəzəri və praktik dəyəri.** Hər şeydən öncə XX əsrin ikinci yarısında Azərbaycanın aparıcı rəssamlarından olan Fazil Nəcəfovun yaradıcılığının mənzərəsini daha geniş şəkildə təqdim etməsindədir. Həmçinin dissertasiya müasir Azərbaycan incəsənəti və mədəniyyəti üçün tarixi yöndən bir mənbə hesab edilə bilər. Bu tədqiqat işi XX əsr və XXI əsrin ilk on beş illiyində Azərbaycan incəsənətinin tarixi ilə bağlı mövzuda təşkil olunan kursların mühazirələri, eləcə də geniş oxucu kütləsi və sənətsevərlər üçün nəzərdə tutulub.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "Təsviri və dekorativ-tətbiqi sənətlər" şöbəsində yerinə yetirilmişdir. Araşdırmanın əsas məzmunu, elmi müddəa və nəticələri 9 məqalədə öz əksini tapmışdır, mövzu üzərindəki axtarışları əks etdirən məruzələr müxtəlif səpkili elmi konfranslarda dinlənilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 136 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## Tədqiqatın məzmunu

Girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki

əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

**Fəsil I "İncəsənət tarixində ənənə və müasirlik problemi, onun Fazil Nəcəfovun yaradıcılığında təcəssümü"** adlanır. Fəsil bütövlükdə incəsənət tarixində, o cümlədən Fazil Nəcəfovun yaradıcılığında ənənə və müasirlik probleminin tədqiqinə həsr olunmuşdur. Tədqiqat işində eləcə də ənənəyə müstəqil fenomen kimi baxılır. Humanitar elmlərin müxtəlif sahələrinin mütəxəssislərinin fərqli baxışlarının təhlili göstərir ki, bu və ya digər formada ənənəni nəsildən-nəslə ötürülən mənəvi dəyərlər kimi qiymətləndirmək lazımdır. Ənənə sözsüz ki, bu və ya digər cəmiyyətin mədəni həyatının əsasını təşkil edir[8]. Həmçinin qeyd olunmalıdır ki, ənənə tarixi prosesin subyekti kimi, xalqların psixologiyasını müəyyən edən amillərdəndir[9].

Lakin, hər bir cəmiyyət öz inkişaf mərhələsində xüsusi ənənə "paketi" qəbul edir, hansısa yeni variantı, yeni ənənəni yaradaraq nəticə etibarı ilə onu həm də yenidən əxz etmiş olur.

Ənənə və novatorluq inkişaf və mədəniyyətin iki əlaqəli tərəfləridir: bir tərəfdə bədii təcrübənin qorunması cəhdi, digər tərəfdə isə ənənəvi təcrübənin interpretasiyasının vacibliyi[10].

XX əsrin ikinci yarısında bədii təcrübədə ənənə və müasirlik kateqoriyalarının qarşılıqlı təsirinin bir neçə tipoloji prinsipləri meydana gəldi. Bu hər şeydən öncə professional rəssamların ənənəvi xalq motivləri, ornamentlər eləcə də fəndlərə istinad etmələri ilə bağlıdır. İkinci yanaşma

---

[8] Краткая философская энциклопедия - М., 1994, с.459.

[9] Лебон Г. Психология масс // В кн.: Психология масс - Самара, 1998, с. 47-48.

[10] Гадамер Г. Г. Актуальность прекрасного / М.: Искусство, 1991.366 с.

xalq sənətinin həyatında onun təmiz ilkin formalarının vasitəsiz ardıcıllığı ilə əlaqədardır. Qarşılıqlı münasibətlərin üçüncü prinsipi müasir və ənənəvi mədəniyyətlərin professional yaradıcılıqda xalq sənəti nümunələri əsasında (dekorativ-tətbiqi) üslubiyyat fəndləri ilə bağlıdır. Ənənəvi xalq məxəzlərinin təəssüratları və hisslərinə əsaslanaraq assosiativ yanaşma daha çox populyarlaşır. Və nəhayət müasir bədii təfəkkürün ənənəvi elementinə tətbiq olunan semantik prinsip "genetik" informasiyanın formalaşan obrazlı strukturunun iştirakı ilə bağlıdır. Beləliklə də müasir bədii praktikada assosiasiya və simvolların köməyi ilə milli və ya regional özünəməxsusluğa, tarixi köklənməyə, ortam konteksti ilə əlaqə qurulma realizə olunur.

Ənənə və müasirliyin Fazil Nəcəfovun həyatının əsas mərhələləri və yaradıcılığı kontekstində tədqiqi (**yarımfəsil 2**) incəsənətdə milli özünəməxsusluq problemi və lokal ənənə ilə bəşəri ənənələrin qarşılıqlı əlaqə və münasibətləri problemləri kimi məsələlərə aydınlıq gətirilməsini tələb edir.

Şübhəsiz ki, milli özünəməxsusluğun təbiəti incəsənətdə kompleks xarakter daşıyır. Buna görə də bir sıra müəlliflər haqlı olaraq onun meydana gəlməsini genetik səviyyədə mövcud olan, rəssamın iradəsindən asılı olmayan fenomen kimi qeyd edirlər (D.Sarabryanov, E.Zinqer, A.Kamenskiy).

Fazil Nəcəfovun əsərlərinin təhlili belə nəticəyə gəlməyə əsas verir ki, sənətkarın yaradıcılıq manerasının kökündə heykəltəraşın fərdi yaradıcılıq mövqeyi dayanır. Bu mövqeyin formalaşmasına müxtəlif stilistik amillər, həmçinin milli mədəniyyətin arxaik təbəqəsi dayanır. Amma Fazil Nəcəfov bir neçə müsahibəsində onun fərdi manerasının formalaşmasına təsir göstərmiş, dünya incəsənəti xəzinəsinə aid olan bir sıra adları qeyd etmişdir. Bunlar Roden, Cakometti, Mantsudur. Avropa

heykəltəraşlığının bu üç dahi nümayəndəsinin yaradıcılığına ötəri nəzər salmağın özü də Fazil Nəcəfovun yaradıcılığının daxili aləminin açılmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Fazil Nəcəfovun əsərlərindəki ənənə və millilik probleminə yenidən nəzər salmaq üçün onun dünya mədəniyyətinə fəal müraciəti yönündə baxış genişliyini qeyd etmək lazımdır. Çünki bu heykəltəraşın əsərlərinin təhlili var gücü ilə onun keçmişin milli ənənəsinə, o cümlədən qədim Misir, Assuriya, şumerlərin ilkin sülalə dövrü, eləcə də arxaik dövrə aid qəhrəmanlıq plastikasına olan yüksək marağını aşkara çıxardı[11].

Heykəltəraşlığın incəsənət növü kimi xüsusiyyətlərini nəzərə alaraq, rəngkarlıq və qrafikaya nisbətən onun "əbədi dəyərlərə" meylli olmasını qeyd etmək lazımdır. Müasirlik problemi orada daha yüksək səviyyədə, belə demək mümkündürsə, "təmizlənmiş görkəmdə" əks olunmalıdır. Bu yaradıcılığın sözügedən növünün obyektiv qanunauyğunluğudur.

**"Fazil Nəcəfovun yaradıcılığında heykəltəraşlıq əsərləri"** adlanan **II fəsil** dəzgah və monumental heykəltəraşlıq əsərlərinin (**yarımfəsil 1 və 3**) hərtərəfli və ardıcıl surətdə öyrənilməsinə həsr olunmuşdur. Dəzgah heykəltəraşlığı əsərləri sırasında portretlərə (**yarımfəsil 2**), o cümlədən "Zamanın oyunları" kimi fundamental əsərin (yarımfəsil 1) təhlilinə xüsusi diqqət yetirilmişdir. Böyük miqyasda yaradılmış bu əsər fəlsəfi və tarixi konsepsiyaya malik olmaqla, həm də müəllifin özünün proqramı kimi çıxış edir. **3-cü yarımfəsildə** isə Fazil Nəcəfovun yaradıcılığının ən son dövrünün səciyyəvi xüsusiyyətlərini əks etdirən dahi

---

[11] Вагабова Д. Фортуна мастера. (Творческий портрет Фазиля Наджафова) // Yol, №5 (23), 2010, сс.62-77.

bəstəkar Qara Qarayevin Bakı şəhərində ucaldılmış monumental abidəsinin təhlilinə geniş yer verilmişdir.

Fazil Nəcəfovun bədii yaradıcılıq taleyini təhlil edərək onu bütünlükdə üç böyük dövrə ayırmaq olar:

1950-1960-cı illər: ilk dövrlər, rəssamın formalaşması;

1970-ci illər: yetkin yaradıcılıq dövrünün başlanğıcı və eyni zamanda təkmilləşmə və müdrikləşmə dövrü;

1980-ci illərdən bu günə qədər yaradıcılıqda yüksəliş, hər kəs tərəfindən qəbul edilmə.

Araşdırmalara Fazil Nəcəfovun hamıya yaxşı məlum olan əsərləri ilə yanaşı az tanınan və ya eskiz halında saxlanılan, lakin böyük bədii əhəmiyyətə malik və maraqlı əsərləri cəlb edilmişdir.

Fazil Nəcəfovun dəzgah əsərlərindən danışarkən söhbətin heykəltəraşın həyati və fəlsəfi düşüncələrinin məhsulu kimi müstəqil, fərdi işləri olan daha diqqətəlayiq heykəllərdən getdiyi qeyd olunmalıdır. Belə ki, istedadının xarakteri yönündən heykəltəraş böyük masştablara meyllidir.

O hələ Moskvada tələbə olarkən ilk dəfə müstəqil rəssam kimi sərgidə iştirak etmişdir. Moskvadan Bakıya dönüşü zamanı gənc heykəltəraş ilk işlərindən olan “Neftçi” fiquru ilə 1962-ci ildə Bakıda keçirilən respublika sərgisində iştirak etdi. Bu heykəlini dəfələrlə Moskvada və Sovet İttifaqının digər şəhərlərində təşkil olunmuş sərgilərdə Azərbaycan incəsənətinin gözəl nümunəsi qismində nümayiş etdirdilər.

Fazil Nəcəfovun ilk heykəlləri içində ümumbəşəri faciə olan İkinci Dünya Müharibəsinə həsr olunmuş “Osvensim” (1965) adlı relyefli daş sütun maraq doğurur. Bu iş 1965-ci ildə faşizm üzərində qələbənin 20-ci illiyinə həsr olunmuş sərgidə nümayiş olunmuşdu. Bu əsər indiyədək kəskin dramatizmi, tədricən ölümə məhkum olunmuş əsir obrazlarının emosional təsir gücü ilə insanı heyrətə gətirir.

1970-ci illərdə heykəltəraşın yaratdığı obrazlar uzun illər boyu onun yaradıcılığının xarakterik simasını müəyyən edəcəkdi. Bu bir tərəfdən köhnə Bakının obrazları kimi “Gedən” (1971), “Tənha” (1973), “Səhra personajı” (yaxud “Səhrada”) (1973), “Korlar” (1977), “Oyanış” (1978), “İzdiham” (1973) bir müddət sonra “Köhnə Bakının motivləri” seriyasını təşkil edəcəkdi, digər tərəfdən də qadın obrazları və hər şeydən öncə “Çılpaq qadın”ın (1976), ümumiləşdirilmiş şərhi konkret tipajları simvolik səslənməyə təhrik edir. Daha çox ayrı-ayrı heykəllərdə müəllifin insan taleləri ilə bağlı fəlsəfi düşüncəyə meylliliyi aşkara çıxır. Belə ki, bu işlərdə gündən-günə onun istedadının dərin dramatik təbiəti ortaya qoyulur.

1970-ci illərin sonlarında heykəltəraş öz işləri sırasında ən faciəvi və ən fəlsəfi əsərindən birini yaradır. “Korlar” (1979, tunc) kompozisiyası Azərbaycan heykəltəraşlığının daha parlaq və ifadəli nümunələri sırasına daxil edilməlidir. Elə həmin dövrdə bürüncdən hazırlanmış “Dövrün əks-sədası” (1979) adlı əsərini yaradan rəssam kompozisiyada “kor bəşəriyyət” metaforasından istifadə edir ki, burada da tamamilə əsərin siyasi mahiyyəti əks olunur.

Bütövlük, vahidlik və daimilik – heykəltəraşın 1980-ci illərdə yaratdığı əsərlərin əsas motivini təşkil edir. Rəssamın məhz həmin dövrə aid “Dəvə” (1980), “Səhər” (1982), “Dua edən” (1985), “Külək” (1980), “Həyat formulası” (1988) kimi böyük maraq doğuran əsərləri Fazil Nəcəfovun həyati və yaradıcılıq baxımından tam kamillik həddinə çatdığını göstərir.

Bu dövrdə yaradılmış obrazların daxili məna yükü, plastik ifadə dilinin ümumiləşdirilməsi metodu ilə Fazil Nəcəfov hər şeydən öncə hansısa “əbədi həqiqəti” ifadə etməyə meyl göstərirdi.

1990-2000-ci illərdə Fazil Nəcəfovun əsərləri arasında öz mövzusuna görə insanın mahiyyəti və varlığı ilə bağlı olan əsərlərdən ibarət qrup meydana gəlir. Belə əsərlərin sırasında “Ağlayan damdabaca” (1988), “Uğur gətirən” (1991), “Qapı taqqıltısı” (1994) var. Fantastik və bir qədər qorxunc görkəmə malik olan “XXI əsrin geni” əsəri özlüyündə gələcək mutasiyaların, insanın mahiyyətini, və insanlar arasındakı əlaqəni əsaslı şəkildə dəyişən pozulmuş daxili harmoniyanı bir növ qabaqcadan hiss etmənin ifadəsidir.

“Kali-yuqa” və “Zamanın oyunları” əsərlərində də heykəltəraşın dünyanın və insanlığın taleyi haqqında düşüncələri öz əksini tapmışdır.

Müasir dünyada, xüsusən də Yaxın Şərqdə yaşananları nəzərə alsaq Kali-yuqa indiki dövrdür. “Zamanın oyunları” kompozisiyası hər şeydən öncə müəyyən bir tarixi dövr Qədim Yunan və Qədim Roma, qədim Midiya və Manna çarlıqları dövrü assosiasiyası yaradır. Əsər ideya-bədii həlli, mövzusu, orijinal formaların tapılması baxımından heykəltəraşın ən dəyərli əsərlərindəndir. Heykəltəraşın bütün yaradıcılığı üçün bu əsər proqram xarakteri daşıyır. “Zamanın oyunları” Azərbaycan heykəltəraşlığında son dərəcə orijinal ideya, heç kim tərəfindən heç vaxt edilməmiş əsl yenilikdir. Üzərindəki fəlsəfi kəlamlar, fatehlərin adları, simvolik obrazlar, kompozisiya quruluşu, plastik formalar, ümumi intellektual görünüş onu müasir heykəltəraşlıq sənətimizin unikal nümunəsinə çevirir.

Fazil Nəcəfovun dəzgah heykəltəraşlığı əsərlərinin təhlili nəticəsində görürük ki, onun yaradıcılığında portret problemi fövqəladə maraqlı fenomen kimi çıxış edir. Ustad sənətkarın portret obrazları həyatiliyi, xarakterin parlaq daxili emosionallığı ilə seçilir. Onu parlaq şəkildə ifadə olunmuş xalq tipi diqqəti cəlb edir. Hər bir konkret simanın fərdi

cizgilərinin ötürülməsi yönündə rəssamın şübhəsiz ustadlıq bacarığından əlavə həm də mütləq heykəltəraşın yaratdığı tipaj seçimi də qeyd olunmalıdır.

Monumental heykəltəraşlıq sahəsində Fazil Nəcəfovun yüksək səviyyəli layihələrinin bəziləri tam olaraq həyata keçirilməmişdir. Məsələn Hüseyn Ərəblinskinin qəbirüstü abidəsi və yaxud Aktyorlar evinin fasadı üçün işlənmiş və bir hissəsi sökülmüş panno bu qəbildən olan əsərlərdir. S.Vurğunun Qazaxdakı abidəsindən sonra (1996) heykəltəraş uzun müddət belə sifariş almamışdı.

Azərbaycan Respublikası Prezidentinin, Birinci xanım Mehriban Əliyevanın, ölkənin tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə Bakı şəhərinin mərkəzində, 2014-cü ilin fevral ayının 3-də açılışı keçirilmiş dahi Azərbaycan bəstəkarı Qara Qarayevin monumental abidəsi xüsusi maraq və əhəmiyyət kəsb edir. Heykəltəraşı bəstəkarın obrazını yaratmaq, bu obraz vasitəsi ilə onun daxili, mənəvi aləmini ifadə etmək baxımından bütün variantlar düşündürürdü. Fazil Nəcəfov bu abidənin modelini, formasını tapanadək yüzlərlə rəsmlər, gips modellər üzərində işləyir və axtarışlar aparırdı[12].

Heykəlin bir neçə üzü və ya səthi vardır. Hər bir səth, hər bir təsvir müstəvisi müxtəlif cür işlənsə də, onlar bir-birini və ən başlıcası isə mövzunu tamamlayır. Müxtəlif plastik həllə malik olan abidənin fonunda dəyirmanla çarpışan Don Kixot, məhəbbət əsiri Məcnun və bir sıra digər səhnələr nəzərə çarpır. Beləliklə də ətrafını dolaşdıqca "abidənin tipləri" vasitəsi ilə gözlərimiz bəstəkarın həyat və

---

[12] Назирова С. Идущий по миру. Фазиль Наджафов слышит голос камня и воплощает его в реальность // «Азербайджанские известия», 2008, 30 июль, с. 3.

yaradıcılığı ilə əlaqəli hansı isə epizoda rast gəlir. Əsərlərindən götürülmüş personajlar, küçələr, köhnə Bakı evləri, nəhayət ustad heykəltəraşın əlləri, hansı ki, illər sonra bir daha sözün əsl mənasında XX əsrin böyük bəstəkarının bütün həyat yoluna nəzər salır. Müəllif dahi bəstəkarın həyat və yaradıcılığını, onun şəxsiyyətini bu nəhəng mərmər qayası üzərində üç əsas mövzu - "Musiqi və zaman", "Bəstəkarın yaradıcılığından səhifələr", "Bəstəkarı cahana bəxş eləyən torpaq-Vətən" üzərində qurmağa nail olmuşdur. Mürəkkəb relyeflər sadəcə müxtəlif heykəltəraşlıq formalarının plastik həlli deyil, sanki müxtəlif rəng çalarlarına malik, parlaq rəngkarlıq əsəri təəssüratını da yaradır. Abidə nadir istedada malik olan iki şəxsiyyətin - dahi Qara Qarayevin nəhəng musiqi və fəlsəfi dünyasının, eləcə də Fazil Nəcəfovun mayası səmimiyyətdən yoğurulan qeyri-adi sənət aləminin vəhdətindən yaranmışdır. Hər iki şəxsiyyəti zaman və onları cahana bəxş eləyən Vətən yetişdirmişdir.

**Fəsil III "Fazil Nəcəfovun yaradıcılıq metodunun xüsusiyyətləri"** adlanır. Birinci yarımfəsildə heykəltəraşın yaradıcılığında önəmli yer tutan qrafika əsərlərinin təhlilinə xüsusi diqqət ayrılmışdır.

Fazil Nəcəfovun qrafika əsərləri arasında iki əsas qrup müəyyənləşdirmək olar: 1) karandaş və tuşla işlənmiş sərbəst rəsmlər (əsasən çılpaq bədən və portretlər) və 2) hazırlıq eskizləri. Bütün hallarda heykəltəraşın məharəti insanı heyran edir. Demək olar ki, cəmisi bir neçə ştrixlə ikiölçülü ağ kağız vərəqində o bitkin plastik, sanballı, tamamlanmış fiziki və mənəvi xarakterə malik olan obrazlar yaratmağa qadir sənətkar kimi özünü göstərir.

İkinci yarımfəsil Fazil Nəcəfovun bədii dilinin xüsusiyyətlərinin və onun yaradıcılıq metodunun səciyyəvi cəhət-

lərinin ümumiləşdirilməsinə həsr olunmuşdur. Onun qabiliyyətinin plastik təbiəti göz önündədir.

Fazil Nəcəfovun heykəltəraşlıq və qrafik əsərləri ilə bağlı aparılan təhlillər bu rəssamın dilinin özünəməxsus daha qabarıq, daha parlaq, daha individual xüsusiyyətlərini formullaşdırmağa və ifadə etməyə şərait yaradır. Hətta özünün qrafika əsərlərində də o hər şeydən öncə dünyanı üç ölçülü dərk edən heykəltəraş və rəssam kimi özünü göstərir.

Fazil Nəcəfovun yaradıcılıq metodu, onun sənətkarlığının, fəlsəfi baxışlarının xüsusiyyətləri, onun düşüncələri bir incəsənət növü kimi heykəltəraşlığın təbiəti ilə məhdudlaşır.

Tənqidçilər dəfələrlə qeyd edirlər ki, bu heykəltəraşın əsərləri arasında eyni obrazın, yaxud plastik motivin müxtəlif materiallardan, bir qayda olaraq daşdan (əhəngdaşı və ya mərmər) və tuncdan hazırlanmış bir çox "cüt işlər"inə rast gəlmək olar. Lakin məhz daş (bir qayda olaraq əhəngdaşı və mərmər) yaradıcılıq və üslub baxımından heykəltəraşın sevimli materialıdır.

Artıq qeyd edildiyi kimi, heykəltəraşın əsərlərinin səciyyəvi cəhəti qismində onların sanki təbiətin özü tərəfindən – küləklə, daşqınla müşahidə olunan kataklizm nəticəsində yaranması dayanır.

Buna nümunə olaraq, "Köhnə Bakı motivləri" silsiləsindən "İki nəfər" bu qisim heykəltəraşlıq qrupuna daxildir. Rəssamın öz sözü ilə desək, "dar, sanki ilan yuvasını xatırladan qayanı görüncə, mən, bu heykəl haqqında düşündüm. Bu kompozisiyada fiqurlarla yanaşı, daxili məkanının da "çalışmasını" istədim[13].

Onun yaradıcılığının əhəmiyyətli bir hissəsi qocalıq və

---

[13] Воронова О.П. В мастерской Фазиля Наджафова. Советская скульптура 76. Москва, «Советский художник», 1978. сс.120-124.

həyatdan gedərilik mövzularına həsr olunub. Heykəltəraşın interpretasiyasında qocalıq müdriklik əlaməti ilə eyniləşdirilir. Fazil Nəcəfovun topladığı personajlar müəllifin özünü və tamaşaçını geniş fəlsəfi problemlər ətrafında düşünməyə yönləndirir. Bu mövzuya heykəltəraş demək olar ki, bütün həyatı boyu müraciət etmişdir. Bunu ötən əsrin 60, 70 və 80-ci illərinin əsərləri də əyani surətdə göstərir.

Fazil Nəzəcovun yaradıcılıq mövzusunda paralel dünyalarda mövcud olan fantastik obrazlar əsas yer tutur.

Əsərləri sırasında iki işin xüsusi yeri olduğu onun yaradıcılığının təhlili zamanı qeyd olunub. Bu ailə və dua motivləridir.

Heykəltəraşın hər zaman müraciət etdiyi sevdiyi mövzular dairəsi var. Məsələn, bir-birinə bağlanmış insanların qrupunu ifadə edən “Ailə” (1980-ci illər), “Həyatımızın mərtəbələri” (1987), yaxud “Həyat formulası” (1988) belə mövzulardandır[14].

Fazil Nəcəfovun bədii dili sanki bir özək kimi yığcamlığı, həcmli formalara meylliliyi ilə diqqətimizi cəlb edir. Öz əsərlərində o həmişə hansısa formal bir tapşırığın - kütlə münasibətləri, həcmlərin vahid kompozisiyada münasibət, statika və dinamika məsələlərini həllinə çalışmışdır.

Rəssamın formaya əsas marağı XX əsr incəsənətinin əsas cəhətlərindən idi. Məhz bədii ifadə vasitələrinin işlənilməsində, forma ilə bağlı müxtəlif eksperimentlər, obrazlı strukturun prinsipial yenilənməsi kimi əsas cərəyanlar incəsənətdə və hər şeydən öncə XX əsrin rəssamlıq və heykəltəraşlığında canlandırılırdı. Bədii formanın emansipa-

[14] Новрузова Д.Г. Скульптура Советского Азербайджана – Баку, 1979, 160 с.

siyası kimi yaradıcılıqda avanqard təfəkkürün mahiyyəti: təsadüfi deyil ki, Fazil Nəcəfovun heykəltəraşlıq dilinin əksər hallarda XX əsr Avropa və Amerika nəhənglərinin yaradıcılıq manerası ilə müqayisə edirlər.

Tarixi təfəkkürə məxsusluq heykəltəraşa xas xüsusiyyətdir. Onun bir çox əsərləri insan taleyi ilə bağlı aramsız təkrar olunan hər şeyin pisi və yaxşısı, səhvlər və uğurlar haqqında düşüncələrinin nəticəsidir. Onun yaradıcılığında epiklik hiss olunur. Lakin bununla yanaşı nüans və çalarlar səviyyəsində, eləcə də formal oyun həddində və yəqin ki, gizli fikir müqabilində bir əminlik ortaya çıxır: Bizim qarşımızda XX əsrin insanı, əsrlərin müdrikliyini dərk edən ustad, bu müdrikliyi müasir insanın təfəkkürünə tətbiq etməyə çalışan şəxs dayanıb.

**Nəticədə** heykəltəraşın çoxşaxəli yaradıcılığının təhlili yekunlaşdırılır və tədqiqatın əsas nəticələri göstərilir:

- Fazil Nəcəfovun yaradıcılığında ənənə məsələsi əsasən iki platformada: milli incəsənətinin, o cümlədən orta əsr daş heykəltəraşlığının ənənələri və Qərbi Avropa incəsənəti ənənlərinin sintezi şəklində öz əksini tapmışdır;
- Fazil Nəcəfovun yaradıcılığında monumental və dəzgah, memorial xatirə və qabartma tipli heykəltəraşlıq nümunələri geniş yer almışdır;
- Fazil Nəcəfovun yerinə yetirdiyi dəzgah heykəltəraşlığı nümunələrində onun milli ənənəyə və müasir sənətə hədsiz dərəcədə sadiqliyi və əsərləri mənəvi-fəlsəfi keyfiyyətlərlə bələməsi özünü açıq-aydın göstərir;
- Fazil Nəcəfovun yaratdığı portret əsərləri obrazın psixologizmi, daxili mənəvi aləmin açılması kimi keyfiyyətləri, həyatiliyi və inandırıcılığı ilə diqqəti cəlb edir;
- Heykəltəraş fərdi obrazlılığa yüksəlmə axtarışlarını real-gerçəkçi üsulla yanaşı, geniş bədii ümumiləşdirmələrdə,

şərti-rəmzi formada gerçəkləşdirdi;

- Fazil Nəcəfovun yaratdığı monumental heykəllərin ideya və məna-məzmun daşıyıcılığına, eləcə də forma-biçim tutumuna görə sünilikdən uzaq olması onların əbədiyaşarlığını şərtləndirməklə, bədii əhəmiyyətini heç zaman itirməyəcəyi birmənalıdır;

- Fazil Nəcəfov hər bir yeni əsərini fəlsəfi baxımdan səciyyələndirəcək ideya-bədii fikrin plastik şərhini novatorluq və janr əhatəliliyi ilə nümayiş etdirməyin mümkünlyünü sərgilədi;

- Hansı mövzuda işləməsindən asılı olmayaraq Fazil Nəcəfov sənətdə öz fərqli dəsti-xəttini, fərqli düşüncə tərzini qoruyub saxlamağa nail olmuş, intellektual baxımdan layiqli müzakirə mövzusu ola biləcək konsepsiyalar irəli sürmüş və bunu ilk dəfə edənlərdən olmuşdur;

- Əminliklə deyə bilərik ki, Fazil Nəcəfov XX əsrin insanı, əsrlərin müdrikliyini dərk edən ustad, bu müdrikliyi müasir insanın təfəkkürünə tətbiq etməyə çalışan güclü iradəyə malik şəxsiyyətdir;

**Dissertasiyanın əsas məzmun və müddəaları dissertantın aşağıdakı məqalələrində əksini tapmışdır:**

1) "Həyat həqiqəti" // Yeni Mədəni-Maarif jurnalı, Bakı-2008, № 5 (207), ss. 69-73.

2) "Fərqli sənət" // AMEA İncəsənət və Mədəniyyət problemləri, Bakı-2008, № 2 (24), ss. 181-187.

3) "Fazil Nəcəfovun yaradıcılığında portret janrı"// AMEA İncəsənət və Mədəniyyət problemləri, Bakı-2009, № 3 (29), ss. 172-175.

4) "Zamanın oyunları"// Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi, Təsviri və dekorativ-

tətbiqi sənət məsələləri, Bakı- 2009, № 1-2, ss. 111-120.

5) "Fazil Nəcəfovun yaradıcılığında teatr mövzusu"/ Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri, Bakı-2011, № 1 (7), ss. 127-131.

6) "Bakının yeni ünvanı"/ Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Xalça Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri, Bakı-"Təknur" 2014, № 2 (14), ss. 60-64.

7) "İncəsənətdə ənənə və müasirlik anlayışı Azərbaycanın xalq rəssamı, heykəltəraş Fazil Nəcəfovun yaradıcılığı kontekstində" / Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Mədəni həyat jurnalı. Bakı-2015 , № 1 (287), ss.12-17.

8) «Особенности художественного языка скульптора, народного художника Азербайджана Фазиля Наджафова» / Международный научный журнал-приложение Республики Казахстан, «Поиск». № 4 за 2015 год. с. 139-142.

9) «Проблема материала в творчестве скульптора, народного художника Азербайджана Фазиля Наджафова» / Министерство Культуры Республики Татарстан, Институт Языка, Литературы и Искусства им. Г.Ибрагимова, Академия Наук Республики Татарстан. Актуальные вопросы развития искусствоведения в России и странах СНГ/ Материалы Международной Научной Конференции, посвященной 135-летию со дня рождения искусствоведа, музейного деятеля, педагога, художника Петра Максимилиановича Дульского (1879-1956), 16-17 декабря 2014 г. Казань-2014, с. 228-232.

*Галиб Ахмед оглы Гасымов*

## Традиция и современность в творчестве скульптора Фазиля Наджафова

## РЕЗЮМЕ

Диссертация посвящена всестороннему исследованию творчества одного из наиболее ярких представителей азербайджанской скульптуры XX века.

Диссертация состоит из введения, трех глав, семи подглав, заключения и библиографии.

Во введении формулируется актуальность темы, определяются степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**Глава I «Проблема традиции и современности в искусствознании, его отражение в творчестве Фазиля Наджафова»** состоит из двух параграфов: «Понятие традиции и современности в изобразительном искусстве» и «Основные этапы жизни Фазиля Наджафова и проблема традиции в творчестве скульптора». Здесь раскрывается характерный и специфический, информАционный аппарат, примененный в исследовании, подвергаются раскрытию основные культурологические и искусствоведческие категории.

**Глава II «Творчество Фазиля Наджафова. Скульптурные произведения»** посвящена всестороннему, последовательному рассмотрению творческого пути скульптора, его станковых и монументальных произведений (подглавы 1 и 3). Особое внимание среди станковых произведений уделено портретам (подглава 2), а также такой фундаментальной работе, как "Игры

времени" (подглава 1). Большое внимание в подглаве 3 уделено памятнику гениальному композитору Кара Караеву.

**В главе III** «Особенности творческого метода Фазиля Наджафова» отдельное внимание уделено произведениям графики (подглава 1) и выявлению и обобщению особенностей художественного языка Ф.Наджафова (подглава 2).

В заключении подведены итоги исследования, сделаны выводы, касающиеся различных аспектов проблемы, заявленной в названии работы.

Дополнением к диссертации служит альбом из 68 иллюстраций.

*Galib Ahmed Gasimov*

**Tradition and modernity in sculptor Fazil Najafov's creativity**
**SUMMERY**

The dissertation is a comprehensive study of the works of one of the most bright representatives of the Azerbaijan sculpture of the 20th c. The dissertation comprises the Introduction, 3 chapters and Conclusion. The Introduction concerns the definitions of the problem actuality, as well as aim and tasks of the research work.

**Chapter I** consists of 2 paragraphs: §1. The definitions of tradition and modernity in Fine Arts, §2. The main stages of life Fazil Najafov and the problem of tradition in the creativity of the sculptor. The apparatus criticus and the main categories of Culturology and Art Critcism applyed in the work are defined in the chapter.

**Chapter II** "Fazil Najafov's Creativity. The Works of Sculpture" - concerns the comprehensive and consistent consideration of the his works as well: both easel and monumental works (§§ 1, 3). A special attention among the easel works was paid to sculptural portraits (§ 2) and to such a fundamental work as "Games of Time" (§1). A great attention was also paid to the monument to composer Gara Garayev in §3.

**Chapter III** "The Peciliarities of F.Najafov's Creative Method" contains the analisys of the works of graphics (§ 1) and the final overview of the features of F.Najafov's art language.

The results of the research work concerned the various

aspects of the main problem announced in the title are exposed in Conclusion.

The dissertation is attended by the Album of 68 illustrations.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ**
**АКАДЕМИЯ ХУДОЖЕСТВ**

---

*На правах рукописи*

**ГАЛИБ АХМЕД оглы ГАСЫМОВ**

# ТРАДИЦИИ И СОВРЕМЕННОСТЬ В ТВОРЧЕСТВЕ СКУЛЬПТОРА ФАЗИЛЯ НАДЖАФОВА

**Специальность: 6215.01**-Изобразительное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора философии
в области искусствоведения

**БАКУ – 2015**